Yaxınlaşdım bu dəfə, dedim. – Dərdin nədir, qız?
Dedi: – Yol üstündəyəm, yolçuluğun nə dərdi?
Dedim: – Gecə keçir, bax, doğmuş daha ay, ulduz,
Dedi: – O da görüşə ay doğanda gələrdi...
Söhbətimiz uzandı.
O danışdı, o andı...
Varaqladı qəlbini zər üzlü dəftər kimi:
Söylədi bu yolların tarixini o mələk.
Tutuldu gecələr tək, açıldı səhər kimi.
Bəzən hıçqırtılarla coşub vəcdə gələrək,
Dil açdı gözəl pəri.
Doluxsundu gözləri,
– İndi iki il olar, mən bu yolda lal kimi
Durub hər axşamçağı düşünürəm yarımı.
Bəzən də o görünür mənə bir xəyal kimi,
Onun bu xəyalına, verib ixtiyarımı,
Danışıram, gülürəm,
Nə cləyim, bilirəm,
Bir anlığa unutmaq, qovmaq üçün dərdimi
Bu keçən görüş yeri mənə bir təsəllidir...
Onu düşmən güllesi torpaqlara sərdimi?
Döyüş qurbansız olmaz, bu mənə də bəllidir.
Lakin görüş günləri,
Biz ayrılandan bəri,
Çəkib-çəkib gətirir bax, məni bu yollara,
Unuduram bir anlıq bu hicranı, bu dərdi,
Mən bu yerdə vermişəm öz qəlbimi dildara,
O hər axşam görüşə ay doğanda gələrdi...

Lirik şeirlər

ETİRAF

Sən şahsan, sultansan qulundur aləm
Mənim qulluğa da yoxdur gumanım.
Səndən uzaq gəzir hicran, qəm, ələm,
Mənim ərşə çıxır ahım, amanım.

Sən gülsən, rəngin al, ətrin gözəl,
Mən sənə əbədi həsrət, tamarzı.
Deyə bilmirəm ki, gəl ey gözəl, gəl,
Yandırdı bağrımı, yaxdı bu arzu!

Sən, bir ev dolusu işıq, yaraşıq,
Mən sənin şövqündə qamaşan gözəm.
Sənə, bilirəm ki, hər görən aşiq,
Mənsə olsa-olsa quru bir sözəm.

Sən bilə bilməzsən nə çəkirəm mən.
Gözəlin yandırmaq olur adəti.
Sənə qurban olmaq gəlsə əlimdən,
Heç kəsə vermərəm bu səadəti!

Bilirəm, bu sözlər sənə yad deyil,
Çox olub qarşında diz də çökənlər.
Sən buna layiqsən, ancaq inan, bil,
Bəzən çiçək açır qara tikanlar.

Mən eşqi, ilqarı dadmışam bir azı
Bəzən gülmüşəm də, ağlamışam da.
Ötüb harın-harın neçə bahar, yaz,
Sel kimi coşmuşam çağlamışam da.

Amma saf ilqarın, saf məhəbbətin
Həsrəti könlümü yaxmış neyləyim?
Mən qulu olmuşam bir ay sifətin,
O mənə biganə baxmış, neyləyim?

İnan, soyumamış könlümün odu,
Saf bir məhəbbətçin yaranmışam mən.
Bəlkə vəslə yetmək nəsibim oldu,
Neyləyim, sevməmək gəlmir əlimdən.

İncə, isti, təmiz əbədi bir eşq!
Hər sözdə, baxışda inam, etibar!
Xoşbəxtdir, deyirəm dünyada ancaq
Ürəklə, inamla aşiq olanlar!

BİLƏYDİ

Mən onu bir könüldən, min könülə sevmişəm.
Bu saf məhəbbətimdən görən xəbəri varmı?
Onun xəyallarıyla keçir gecəm, gündüzüm,
Onun da sevda dolu keçən günləri varmı?
Gecələr ulduz kimi yananda ağ işıqlar,
Ağac kölgəliyində cəm olanda aşıqlar,
Xəzərin sahilində ləpələr öpüşəndə,
Qarşımdan mahnılarla cavanlar ötüşəndə,
Mən eşqimin gözüylə uzaqlara baxmışam,
Su üzündə sayrışan çıraqlara baxmışam.
Onun eşqi, həsrəti xəyalımda gəzəndə,
Bu vurulmuş könlümü intizarı üzəndə,
O qız, dəzgah önündə bəlkə açmış səhəri
Həsrətlə seyr eləmiş o da əziz şəhəri...
Nə olaydı çataydı ona bu xoş niyyətim,
Ürəkdə qalmayaydı bu eşqim, məhəbbətim.
Axşam üstü Bakıya xoş qaranlıq enəndə
Biləydi duran mənəm bu şən ləpədöyəndə.

YANA-YANA

Canan üz döndərdi əğyarla getdi.
Qaldım ortalıqda mən yana-yana.
Cavanlıq quş kimi uçdu əlimdən,
Düşdü saçlarıma dən yana-yana.

Dağların başını dedim aldı qar,
Neçə zalım imiş gördüm ruzigar,
Əldən yavaş-yavaş çıxır olanlar,
Ömür keçir, olur, tən yana-yana.

Yaxında nə vardı çəkilir geri
Gözlərim görməyir on addım yeri,
Zeynal, dərd eləmə ötən günləri,
Cücərməz bir daha, dən, yana-yana.

* * *

Mən cavandım, sən də uşaq
Sevincimiz qucaq-qucaq,
Sığmayırdı yerə, göyə.
Bu dünyada heç bir şeyə,
Olmamışıq tamarzı da,
Hər ikimiz bir arzuda.
Toz boy ataq,
Vəslə çataq...
Eşqimizə baxsın hamı,
Bilsin hamı,
Kimdən aldım mən ilhamı,
Yadındamı?
Mən cavandım sən bir mələk,
Görüşünə tələsərək,
Səhərçağı, gecəyarı,
Dolaşardım dalanları.

Dəli kimi.
Zəli kimi,
Əl çəkməzdim küçənizdən,
Qapınızdan.
(Kim keçərdi sənin kimi
Gözəl qızdan?).
Yay səhəri, qış axşamı
Yadındamı?
Mən cavandım, sən hörüyü
Topuğunda gözəl pəri.
Vurulardı, kim görsəydi.
Qoşa-qoşa hörükləri.
İndi, bəli,
Söyləməli
Nə qaldı ki, salım yada?
Bu dünyada
Çox şey, çox şey!..
Etmə gilcy ömrümüzdən.
Həyat-külək!
Şütüyərək,
Harın-harın nə vermişsə,
Alır bizdən!
Bu qanundur nə gələr ki, əlimizdən?
Etmə giley, qocalırıq,
Sən də, mən də yavaş-yavaş.
Etmə giley, söyləmə ki,
Günlər belə ötməyə kaş!
Etmə giley ömrümüzdən,
Bu qanundur,
Həyat özü nə vermişsə
Yavaş-yavaş alır bizdən.
Qələm qaşı, şəvə saçı
Xoş gülüşü, inci dişi,
Ötüb-keçən görüşləri,
Çox axşamı, çox səhəri,
Çalış, unut,

Salma yada.
Qocalsan da
Azad yaşa,
Xoşbəxt yaşa
Bu dünyada
Arzumuza yetdik, axı...
Dərd eləmə qocalığı.
Oğluna bax, qızına bax,
Çiçək açan arzuna bax
Anla, gülüm, budur həyat,
Qocalmaqdan gileyi at!
Çox verdikcə ağac barı,
Ömrü olur, inan yarı.
Sənin barın,
Övladların!
Ötən günlər hədər deyil,
Dərya kimi daşa-daşa
Bar verməklə dolmaq yaşa,
Əzab deyil, kədər deyil!

GÖZƏLLƏR

Gözəllər dəstə-dəstə,
Gözəllər qatar-qatar...
Gözəllər o qədər ki,
Onları nə yer tutar,
Onları nə göy tutar!

Bakımın sinəsində
Açan yaşıl, qırmızı
Çiçəyə bax, gülə bax!
Nə yamandır a dostlar
İlin bu vədəsində,
Gülün bu vədəsində
Yaşa dolub, qocalmaq!

Səslər axır könlümə
Səp-sərin sular kimi,
Səslər uçurdur məni
Şirin arzular kimi.
Səslər tutur qolumdan
Sanki mənə "qalx!" deyir,
Gözəllər dəstə-dəstə,
Gözəllər qatar-qatar
– "Olmaz qocalmaq! " – deyir.
Olmaz! deyir, olmasın!
Qoşulum bu gəncliyə,
Mən də cavanam deyə:
Qaçsalar, qaçım gərək,
Uçsalar, uçum gərək,
Göydə ayı, ulduzu,
Qucsalar, qucum gərək!
Bu işin, bu sürətin,
Bilirəm ki, çox çətin
Dərəsi var, dağı var,
Yolda yorulmağı var,
Dözərəm!
Dəryalara cumsalar,
Üzərəm!
Bacarmasam, nə dərdim?
Yurdumun gözəlləri,
Yurdumun cavanları
Yenə də dəstə-dəstə,
Yenə də qatar-qatar
Gəlib qolumdan tutar,
Məni qaldırar göyə
"Sən də cavansan" – deyə!

DEYİRSƏN Kİ...

Qınayırsan ey gözəl,
Deyirsən unut məni.
Deyirəm rəhmin olsun,
Sevirəm, ovut məni.
Ürəyimi yarımmı,
Gözümü çıxarımmı,
Görüb, bəyənib səni?

Deyirsən məktublarım
Zəhləmi tökdü, bəsdir!
Deyirəm sənsiz həyat,
İnan, quru qəfəsdir.
Ürəyimi yarımmı,
Gözümü çıxarımmı,
Görüb, bəyənib səni?

Deyirsən *unut mənim*
Ünvanımı, özümü.
Zeynalın yoxdur inan,
Ayrılığa dözümü,
Ürəyimi yarımmı,
Gözümü çıxarımmı,
Görüb, bəyənib səni?

ƏLİNDƏN

Səni gördüm, bir də görə biləydim,
Bircə anı bir il sürə biləydim,
Əmr edəydin, könül verə biləydim
Aman sənin, aman sənin əlindən!

Nə yamanmış qırx yaşında vurulmaq,
Bir ümmanam, bilməyirəm durulmaq
Aşiq üçün səadətdir yorulmaq,
Aman sənin, aman sənin əlindən!

Bilmirəm ki, nə sevdadır düşmüşəm,
Elə bil ki, bu dünyadan küsmüşəm,
Bircə sənin xəyalındır hər peşəm,
Aman sənin, aman sənin əlindən!

Yoxdur daha sevilməyə gümanım,
Qalxar göyə sənsiz ahım, amanım,
Sən ey gözü qaram, qaşı kamanım
Zeynal deyər aman sənin əlindən!

SİRR

Çoxu baxdı, ey mələk, qolumdakı yaraya
Çox həkimlər yığışdı, aldı məni araya,
Kəsilsin qolun gərək, cavan oğlan – dedilər.
Bu da bir qəziyyədir olub-olan – dedilər.

Sən kəsib doğradıqca sümüyümü, otimi,
Nə bircə uf söylədim, nə bir aman çağırdım,
Unudub ağrıları, toplayıb qüvvətimi,
Çünki sənin gözünə heyran-heyran baxırdım.

Bilmirəm ki, nə sirrdir, bıçağın altında mən,
İnləmədim, dayandım bir qocamanı dağ kimi?!
Amma səni görərkən indi uzaqdan həmən,
Ürəyim tir-tir əsir yel vurmuş yarpaq kimi!

QAYNAQÇI

Çox susadım,
Yandım, yandım,
Ürəyimdə bir atəş.
Ayaq altda qızmar dəmir,
Baş üstündə al günəş!
Çox susadım,

Yandım, yandım
Bir fəhlənin qarşısında dayandım:
– Bir içim su,
Bir papaqlı sərin kölgə...
Dedim bəlkə...
Göstərəsən a qardaş?..
Qardaş dedim,
Gəlmədi heç qardaşımın
Nə səsi, nə səmiri.
Qardaş dedim,
O, daha cəld qaynaq etdi
Dəmiri.
Qığılcımlar ulduz kimi
Səpələndi üstümə.
Elə bildim birdən-birə
Su çiləndi üstümə.
O, qaynaqçı papağını
Çəkdi bir az geriyə...
Demə, qardaş söyləmişəm
Canlar alan pəriyə!..
Bulud örtdü bircə anda
Başım üstə günəşi.
Nə oldu ki, ürəyimin
Söndü odu, atəşi?
Ayaq altda qızmar dəmir
Elə bildim buz oldu?
Bildim nədən!
Ürəyimi sərinlədən
O qaynaqçı qız oldu!

GEDƏR

Baykalın suları lal,
Axar gedər, axar gedər,
Baykalın suları bal,
Axar gedər, axar gedər...

Burdan düz keçmək olmaz,
Sahildə dayan bir az.
Sənə min gözəl maral,
Baxar gedər, baxar gedər...

Əgər sevsən birini
Açsan ürək sirrini,
Desən ki, qalasıyam,
Mən səni alasıyam.
Qara gözün könlünü
Yaxar gedər, yaxar gedər...

Bakıdanam, söyləsən,
"Ay qız, mənə gəl" desən,
Üzük təklif eyləsən,
Alıb şana barmağa,
Taxar gedər, taxar gedər...

Təbrik edir dost, tanış,
Bu saf eşqinə alqış,
Keçər yüz-yüz payız, qış,
Bahar gedər, bahar gedər...

GƏNCLİK ARZUSU

Gözəllər dəstə-dəstə,
Gözəllər qatar-qatar...
Gözəllər o qədər ki,
Onları nə yer tutar,
Onları nə göy tutar!

Bakının sinəsində
Açan yaşıl, qırmızı
Çiçəyə bax, gülə bax!
Nə yamandır a dostlar

İlin bu vədəsində,
Günün bu vədəsində
Yaşa dolub, qocalmaq!

Səslər axır könlümə
Səpsərin sular kimi,
Səslər uçurdur məni
Şirin arzular kimi.
Səslər tutur qolumdan
Sanki mənə "qalx!" deyir,
Gözəllər qatar-qatar
– "Olmaz qocalmaq!" – deyir.
Olmaz! Deyir, olmasın!
Qoşulum bu gəncliyə,
Mən də cavanam deyə.
Qaçsalar, qaçım gərək,
Uçsalar, uçum gərək,
Göydə ayı, ulduzu,
Qucsalar, qucum gərək!
Bu işin, bu sürətin,
Bilirəm ki, çox çətin
Dərəsi var, dağı var,
Yolda yorulmağı var,
Dözərəm!
Bacarmasam, nə dərdim?
Yurdumun gözəlləri,
Yurdumun cavanları
Yenə də dəstə-dəstə,
Yenə də qatar-qatar
Gəlib qolumdan tutar,
Məni qaldırar göyə
"Sən də cavansan" – deyə!

OLUB

Bizim bu gözəllər ata-babadan
İpək xasiyyətli, həyalı olub.
Min oğlan yandırıb yaxsa da gündə,
Başında bir gəncin xəyalı olub.

Yanağı kirşansız, gözü sürməsiz,
Sünbül hörükləri şalsız, tirməsiz.
Üzü ay parçası, göylərdən təmiz,
Əlləri xilqətdən hənalı olub.

Su içib hamısı min bir bulaqdan,
Odur ki, bal damır dildən-dodaqdan,
Oğlanlar küsməsin lalə yanaqdan,
Zeynalın da başı bəlalı olub.

1969

OLA BİLMƏZ!

Ömrün hər gününün öz ləzzəti var,
Anıma cavanlığa tay ola bilməz.
Min yaşıl rəngə də boyasan qışı,
Dönüb bircə günü yay ola bilməz.

Gəzsən ömrün boyu meşəni, dağı,
Qatsan bir-birinə saysız bulağı,
Çapsan qayaları Fərhad sayağı,
Gur sellər axmasa çay ola bilməz.

Zeynal sevə-sevə dolubdur yaşa,
Namə göndəribdir bir qələm qaşa,
Neyləyim, ürəyi dönübdür daşa,
Deyib ondan mənə tay ola bilməz.

1966

YAZMAZDIM

Məni qınayırsan, deyirsən yetər,
Bəsdir gözəlləri qələmə aldın.
Getdi cavanlığın, getdi o illər,
Artıq yaşa doldun, artıq qocaldın.

Düzdür, gənc demirlər daha Zeynala,
Qoca da deyiləm, əslinə baxsan.
Gözəllər göstərim sənə, az qala
Yaş nədir, adını unudacaqsan!

Bax, ürək açılır, tamaşa et, gəl
Bizi heyran qoyur ana təbiət.
Gözəl yaratmaqdan o çəksəydi əl,
Mən də gözəllərə yazmazdım əlbət.

Müxtəlif şeirlər

MİRZƏ CƏLİLƏ

Göz açdın həyata vətənin nalə səsindən
Bəxş etdi bizə oğlunu mərd Azərbaycan.
Olmaz! – dedin, – olmaz! – dedin,
ey Mirzə Cəlil, sən,
Azad bu Vətən qalxmasa qəflət yuxusundan.

Qəlbin alışıb yandı, gözün doldu-boşaldı,
Güldün, gülüşün ah ilə əfqandı, kədərdi.
Gördün vətən övladı yaman günlərə qaldı.
Göylər belə, yerlər belə çəkməzdi bu dərdi,

Azadlıq oldu təbin,
Dəryalar mürəkkəbin,
Meşələr qələmin oldu,
El dərdi ələmin oldu.

Əlsiz, ayaqsız,
Köməksiz, dayaqsız,
Qədim, qədim, qədim
Bir milləti oyatdı yuxudan
hər sözüm.

Söylədin, ey xalq,
keçsin gecələrin,
Gülsün gündüzün.
Oyan, oyan, oyan,
Bax, bax, bax!

Oyanır cahan, oyanır aləm, oyanır həyat.

Cəhaləti at!
Səfaləti at!
Nadanlığı at!
Avamlığı at!

Bu Odlar yurdunda yeni bir aləm yarat!

Doğdu aprel günəşi
Salamladı cllləri.
Başa çatdı ellərin
Azadlıq əməlləri.
Bir cahana sığmadı
Azərbaycan, vüqarın.
Bəxtəvərdir, ey vətən
Qızların oğulların.

Ey gözəl, ey əziz ana torpağı
Mehriban, ey təmiz ana torpağı,
Azərbaycanım, Azərbaycanım!
Elmin, hünərin dünyanı heyran eləyibdir,
Əhsən, vətən oğlu!
Neftin gecəni nurlu çıraqban eləyibdir,
Əhsən, vətən oğlu!
Baxdıqca çölü, düzləri min rəngə çalır bax,
El Azərbaycanı gülüstan eləyibdir,
Əhsən, vətən oğlu!
Bax, Mirzə Cəlil, Fatma, Tükəzbanlara bir bax.
Övladi-Vətən gör necə ad, san eləyibdir!

Arzuların verdi bəhər
Bu diyarda,
Torpaq azad, el bəxtəvər
Bu diyarda.
Əməllərin yetir başa,
Nur çilənir dağa, daşa,
Bu diyarda.
Ürəklərdə var heykəlin
Mirzə Cəlil, Mirzə Cəlil,
Mirzə Cəlil!..

1966